# 15 sentyabr Bilik Günüdür

**Sentyabrın 16-da rayonumuzun ümumtəhsil məktəblərində yeni dərs ili başlanır. Yeni dərs ilində 68 orta, o cümlədən 53 tam orta 11 əsas və 4 ibtidai təhsil ocağında 2.499 müəllim 16.554 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olacaqdır.**

## Qəbələ rayonu üzrə 2012-2013-cü tədris ilində 600-dən çox bal toplayan məzunlar

| № | Soyadı, adı, atasının adı | Təhsil aldığı məktəb | İxtisas qrupu | Topladığı bal | Daxil olduqları universitetlər |
|---|---|---|---|---|---|
| 1. | Qafarlı Şahnaz Bəhman qızı | Zarağan kənd 1 saylı tam orta məktəb | III | 692 | Azərbaycan Respublikasının Prezident yanında Dövlət İdarəçilik Akademiyası. Hüquq |
| 2. | Əfəndiyeva Ayişə Ədalət qızı | Qəbələ şəhər 5 saylı tam orta məktəb | III | 688 | ADPUİA. Hüquq |
| 3. | Mehdiyeva Mənzər Şahin qızı | Kiçik Əmili kənd tam orta məktəb | III | 678 | ADPU. İngilis dili |
| 4. | Abdurəşidli Durna Mahir qızı | Qəbələ şəhər 4 saylı tam orta məktəb | III | 671 | BDU. Hüquq |
| 5. | Məmmədli Nərmin Rəşid qızı | Qəbələ şəhər 1 saylı tam orta məktəb | IV | 670 | ATU. Müalicə işi |
| 6. | Şirinli Orxan Bəylər oğlu | Mıxlıqovaq kənd tam orta məktəb | III | 660 | ADPİA. Beynəlxalq hüquq |
| 7. | Rəsulov Ayxan Arif oğlu | Kiçik Pirəlli kənd tam orta məktəb | II | 659 | İqtisadiyyat Universiteti. Maliyyə işi |
| 8. | Ələkbərli Nəsir Ələkbər oğlu | Həmzəlli kənd tam orta məktəb | II | 657 | Xəzər Universiteti. Maliyyə işi |
| 9. | Kərimli Ləman Rauf qızı | Qəbələ şəhər 2 saylı tam orta məktəb | IV | 655 | ATU. Müalicə işi |
| 10. | Məmmədzadə Zaur Azad oğlu | Xırxatala kənd tam orta məktəb | I | 645 | BANM. Kimya-mühəndisliyi |
| 11. | Əsgərzadə Elmar Etibar oğlu | Tüntül kənd tam orta məktəb | I | 642 | ADNKA. Neft kimya mühəndisliyi |
| 12. | İslamova Ülkər Mehman qızı | Kiçik Pirəlli kənd tam orta məktəb | IV | 639 | ATU. Müalicə işi |
| 13. | Salamzadə Pərvin İbrahim oğlu | Xırxatala kənd tam orta məktəb | I | 637 | BANM. Kimya-mühəndisliyi |
| 14. | Səlimli Samir Səlim oğlu | Qəbələ şəhər 4 saylı tam orta məktəb | I | 637 | Azərbaycan Neft Akademiyası. |
| 15. | Yadigarlı Könül Etibar qızı | Nic qəsəbə 3 saylı tam orta məktəb | IV | 632 | Qafqaz Universiteti. Biologiya |
| 16. | Musabəyli Musabir Müşadiq oğlu | Qəbələ şəhər 5 saylı tam orta məktəb | I | 617 | İnformasiya Texnologiya İnstitutu. Kompüter mühəndisliyi |
| 17. | Əliyev Azər Samir oğlu | Həmzəlli kənd tam orta məktəb | II | 615 | İqtisad Universiteti. Maliyyə işi |
| 18. | Əlizadə Təravət Mehman qızı | Zarağan kənd 2 saylı tam orta məktəb | III | 611 | BDU. Politologiya |
| 19. | Nadirli Nadir İxtiyar oğlu | Qəbələ şəhər 3 saylı tam orta məktəb | III | 610 | Azərbaycan Diplomatik Akademiyası. Dövlət və ictimai münasibətlər |
| 20. | Eyvazov Səxavət Azər oğlu | Yemişənli kənd tam orta məktəbi | II | 608 | ADİU. Maliyyə işi |
| 21. | Tağızadə Mahir Natiq oğlu | Qəbələ şəhər 1 saylı tam orta məktəb | II | 607 | ADİU. Maliyyə işi |
| 22. | Mehralıyev Səyyad Fikrət oğlu | Yemişənli kənd tam orta məktəb | I | 607 | Fövqəladə Hallar Nazirliyinin Akademiyası. Dövlət və İctimai münasibətlər |
| 23. | İlyaslı Tural Müsavər oğlu | Vəndam qəsəbə 2 saylı tam orta məktəb | I | 606 | Azərbaycan Universiteti. Kompüter mühəndisliyi |
| 24. | Məmmədova Humay Nəriman qızı | Kötüklü kənd tam orta məktəb | III | 605 | Xarici Dillər Universiteti. Filologiya |
| 25. | Salehli Ülvi Əlövsər oğlu | Vəndam qəsəbə 2 saylı tam orta məktəb | I | 603 | Qafqaz Universiteti. Mexanika mühəndisliyi |
| 26. | Bağırova Cəmilə Məmmədağa qızı | Qəbələ şəhər 2 saylı tam orta məktəb | I | 602 | BDU. kompüter elmləri |
| 27. | Abdurəşidli Sona Mahir qızı | Qəbələ şəhər 4 saylı tam orta məktəb | IV | 601 | ATU. Müalicə işi |

## Etimada layiq işləyəcəyik

***Məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012—2013-cü tədris ilində keçirilmiş «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsi qaliblərinin mükafatlandırılması haqqında sərəncam imzalamışdır. Mükafatlandırılanlar arasında Vəndam qəsəbə 1 saylı tam orta məktəbi də vardır. Aşağıda məktəbin direktoru Qətibə Abbasovanın qeydlərini dərc edirik.***

Məktəbimizin tarixi çox qədimdir. Bu təhsil ocağı XIX əsrdə—1883-cü ilin oktyabrında yaradılmışdır. Fəaliyyəti dövründə həmişə yüksək nailiyyətləri ilə fərqlənmişdir.

Ali məktəblərə tələbə qəbulunun nəticələrinə və yetişdirdiyi kadrlarının uğuruna görə təhsil ocağımız respublika miqyasında biz müəllimlərə həmişə üz ağlığı gətirmişdir.

Məktəbin hal-hazırda 723 şagirdinin təlim-tərbiyəsi ilə 127 müəllim məşğul olur. Müəllimlərin 101 nəfəri ali təhsillidir. Məktəb bütün ixtisaslar üzrə kadrlarla tam təmin olunmuşdur.

Məktəbin məzunlarından 35 nəfəri elmi dərəcə almışdır ki, bunlardan da 6 nəfəri elmlər doktoru, 29 nəfəri isə elmlər namizədidir.

Məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi, fənn kabinetlərinin əyani vəsaitlərlə zənginləşdirilməsi, tədris prosesində onlardan səmərəli istifadə olunması şagirdlərin yüksək əxlaqi keyfiyyətlərinin inkişaf etdirilməsi və vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərir.

Bildiyimiz kimi möhtərəm Prezidentimiz ilimizi «İnformasiya-Kommunikasiya Texnologiyaları» ili elan etmişdir.

Müasir İKT-nin pedaqoji işə tətbiqi artıq öz bəhrəsini verir. Milli kurikulumun dərindən öyrənilib mənimsənilməsi üçün vaxtaşırı müsabiqələr aparılır. Təhsil Nazirliyi tərəfindən məktəbimizə 24 dəst kompyuter, 1 ədəd nootbuk verilmişdir.

Məktəbdə 12880-dan artıq kitab fondu olan kitabxana fəaliyyət göstərir. Məktəb kitabxanasında oxucu konfranslarının, kitab müzakirələrinin, görkəmli yazıçıların yubileylərinin keçirilməsi ənənəvi hal almışdır.

Məktəbimiz uzun müddətdir ki, məzunların ali məktəblərə qəbulu sahəsində ön sıralarda gedir. Son 5 ildə məktəbin məzunlarından 164 nəfəri respublikamızın, həmçinin respublika hüdudlarından kənarda olan ali məktəblərə qəbul olmuş, bunlardan 45 nəfəri 500-dən artıq bal toplamışdır. 2011-2012-ci dərs ilində ilin yekunlarına görə 54 abituriyent ali məktəbə sənəd vermiş, 27 nəfər tələbə adını qazanmış, 11 nəfər 500-dən artıq bal yığmışdır.

Məktəbin məzunlarından Müzəffərova Nigar Ruslan qızı İstanbul Mərmərə Universitetində, Cəfərov Samir Fərzi oğlu Mərmərə Universitetində, Müzəffərova Günay Ruslan qızı İstanbul Texniki Universitetində, Əfəndiyev Fərəc Akif oğlu Ankara Hacettepe Universitetində təhsillərini davam etdirirlər.

Məktəbin məzunu Quluyev Anar Qaryağdı oğlu «Britiş Petrolium» şirkətində mühəndis işləyir və hal-hazırda Bakı—Tbilisi—Ceyhan kəmərinin yenidənqurma layihəsinin hazırlanması üçün 2 illik müddətə Londona ezam olunmuşdur.

Şagirdlərimiz mütəmadi olaraq rayon və respublika fənn olimpiadalarında, inşa müsabiqəsində fəallıq nümayiş etdirir. Xüsusi istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramına əsasən məktəbimizin şagirdi Xeyrəddinli İnarə Mətləb qızı I dərəcəli diploma, Xan Şuşinski adına respublika Muğam Festivalında yüksək səviyyədə çıxış etdiyinə görə Abdurahmanov Hacıbala Əlibaba oğlu I dərəcəli diplomlara layiq görülmüşlər. Əldə olunan uğur və nəticələr ölkə rəhbərliyinin və dövlət qayğısının bariz nümunəsidir.

**(Ardı 6-cı səhifədə).**

# Yeni dərs iliniz mübarək!